# Könüllərdən gələn səslər

## Səninlədir Azərbaycan

O iki min üçüncü il dekabrın on ikisi
Çox ağrılı, bəd bir xəbər bir alov tək sardı bizi.
O, adi bir varlıq deyil, ilahi bir qismət idi,
Adı şirin bir anımla yaddaşlarda qaldı getdi.
Əsrimizin nəhəngiydi o, Tanrının kölgəsiydi,
Ağır gündə ümidimiz xalqımıza təsəlliydi.
Necə yazım bu itkini layiq olsun o ünvana,
Nə bəxtiyar olmuş onu bu yurda bəxş edən ana.
İstərəm ki, söyləyim mən andığım bir həqiqəti,
Çətin görər əsrlərlə tarix belə şəxsiyyəti.
Azərbaycan, gözəl diyar, gözəl hüsnün bəlası var,
Bu bəlanın əsrlərlə bizə çatan sədası var.
Bu sədanın ağrısından ürəklərin yarası var,
Bu yaranın göynərtisi qəlbimizdə daim sızlar.
Klivlenddən, qürbət eldən gəldi xəbər, amma hələ
Nəşi hələ yetişməmiş o hüznlü doğma elə.
Heç kim evdə qərar tutmur, geyib matəm libasını,
Oğul gözlər atasını, nəvələrsə babasını.
Bu son vida görüşüyçün ilə dönür dəqiqələr,
Ayrılığın ağrısını nə bilərlər görməyənlər.
Heydər baba, Heydər baba eşitdiyin doğma səslər
Yaddaşlarda qalıb yaşar dildən-dilə xatirələr.
Bu xalqa sən bir ruhani ata oldun, baba oldun,
Çünki xalqın adını sən ucaltmaqdan ilham aldın.
İlham sözün illər boyu ürəyində əzizlədin,
Bu sevimli ifadəni öz oğluna ad elədin.
Tükənməyən arzuların, əməllərin davamçısı
Dedin İlham olar bir gün xoş günlərin ilhamçısı.
Zaman keçdi niyyətini sayə saldı Tanrı özü.
Bir gün bizim qədirbilən xalqın gözü, xalqın sözü
Əsas oldu çalxalanan bu narahat bir məkanda
Prezident İlham oldu həlledici bir məqamda.
İndi daha rahat uyu, qoy xoş olsun ruhun sənin,
Tanrı özü İlhamını hər bəladan hifz eləsin.
Oğul İlham, bu itkiyə sarsılma, gəl mətin dayan,
Bax ki, bu gün tək deyilsən səninlədir Azərbaycan.
Hər qaranlıq gecənin ki, bir işıqlı gündüzü var,
Haqq yolumuz budur, gün bizi qələbəyə qovuşdurar.

## Babam demiş

Arzu gözəl olduğundan qiymətlidir, gərəklidir,
Hər insan öz arzusuynan seviləndir, sevilməzdir.
Gəl qeyrətli vətən oğlu, sən də qoşul bu arzuya,
Ana yurdun tale yüklü sabahını duya-duya.
Böyük-kiçik, hamı gərək "vətən daşı" olsun yurda,
Bəlkə onda yem olmadıq quşa-qurda.
Adi bir quş perik düşsə yuvasından qan-yaş tökər,
Qaçqın baxar yurda qarşı gör qəlbindən nələr keçər.
Dünya, sonun yetişibmi, qərar tutmaz belə zaman,
Bunca hakim olarmı heç həqiqətə yalan-böhtan.
Dilimizdə şüar oldu bir yalançı beynəlmiləl,
Nə biləydik fitnə toxumu səpir yurda qanlı bir əl.
Sadəlövhlük bağışlanmaz günah oldu bizə, günah,
Bu günahdan əsrlərlə günahsızlar çəkibdi ah.
Harda türkü gördün öldür deyən qəddar düşmənə də
Qəlbi geniş Atatürkün kin olmadı ürəyində.
Ayrı qardaş yaxın qonşu kəlamı var dilimizdə,
Əli yalın qız-gəlini qovmaq yoxdur elimizdə.
Mərdi qovub namərd etmək olmaz-deyib mənə babam,
Başı qarlı Şahdağı tək çox vüqarlı bir torpağam.
Şamil bir gün müridlərə qaçanları qovma demiş,
Təslim olmuş düşmənə də bir gün belə zülm etməmiş.
Qaçaq Kərəm düşmən idi, İsrafillə qanlı düşmən,
Amma məğlub düşməninin keçəmmədi körpəsindən.
Düşmən gərək kişi olsun, kişidə qeyrət gərəkdir,
Məkir-hiylə, fitnə-fəsad nakəslərin xislətidir.
Ot kökü üstə bitər-deyib mənim babam ta qədimdən,
Bilin, bir sağlam kökdən qida alan pöhrəyəm mən.
Öz adına layiq iş gör-deyib mənə bir də babam,
Bu xeyirxah kəlam qoymaz özgə bədxah bir yol tutam,
Dağlarımın da xoş niyyətli Promotey ünvanı var,
Min illərdən sönməz odu bu torpaqdan alovlanar.

**Mirzəbala YEDİYAROV,**
**Bılıx kəndi.**




## Əzizimiz Elturan!



*Səni 1 yaşın münasibətilə təbrik edirik. Ulu Tanrıdan sənə gözəl ömür, xoşbəxtlik, səadət və can sağlığı arzulayırıq!*

***Babaların Varis, Nəriman, nənələrin Səmayə, Ulduzə, atan Anar, anan Səbinə, bacın Süsən, bibilərin Nüşabə, Pərvanə, xalan Nərmin, dayın Məhəmməd.***

## ELANLAR

Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 1 aprel 2005-ci il tarixdə Bum qəsəbə sakini Soltanov Mustafa Şıxamməd oğlunun adına verilmiş **1/04 №-li qeydiyyat vəsiqəsi itdiyi** üçün etibarsız sayılır.

---

Cəlilova Rəhilə Məhəmməd qızına verilmiş AN-İN 0196263 saylı **daşınmaz əmlakın alqı-satqı müqaviləsi itdiyi üçün** etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələri Veteranlarının Qəbələ Rayon Şurasının sədri İ. Mustafayev Böyük Vətən Müharibəsi veteranı

**XƏLİLOV MƏMMƏDƏLİ QURBAN OĞLUNUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin kollektivi Mərkəzin direktoru **Rəna Mahmudovaya**, qardaşı

**ELŞADIN**

vəfatı münasibəti ilə kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

«Qəbələ» qəzetinin kollektivi **Rəna Mahmudovaya** və iş yoldaşları **Nahidə Əbdürəhimovaya**

**ELŞAD ƏBDÜRƏHİMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələri Veteranlarının Qəbələ Rayon Şurasının sədri İ. Mustafayev şuranın sədr müavini **Nurəddin Tağızadəyə**, həyat yoldaşı

**NƏKİBƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

## Oxucuların nəzərinə!

## «Qəbələ» qəzetinə

*2014 -cü il üçün abunə yazılışı davam edir.*

*Qəzet ayda dörd dəfə çıxır.*

**İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.**

*Abunə «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № 33080019444900218149. VÖEN 4400103601.*

Ünvan: Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.

Telefonlar: (024)20 5-19-14, 5-15-56, mob. (050) 328-11-42.


*Redaktor*
*O. Ə. Məmmədov.*

*TƏSİSÇİLƏR:*
**Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.**
*Məsul növbətçi*
*Q. C. Səmədov.*

**ÜNVANIMIZ:**
**AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.**
**Redaktor: (024)20 5-19-14.**
**Ümumi: (024)20 5-15-56.**
**e-mail: gabalanews@mail.ru**

**Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611**
**«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149 VÖEN: 4400103601**

**Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.**
**Tiraj 2300.**
**Oxucu məktubları geri qaytarılmır.**